# Kommunikasiyaların açılmasını regionun inkişafı tələb edir




**_Postmüharibə dövrünün Cənubi Qafqazda yaratdığı yeni vəzifələrdən biri də regionun sosial-iqtisadi inkişafına nail olmaq üçün bütün kommunikasiya xətlərinin bərpasına nail olmaqdır. Xüsusi olaraq vurğulayaq ki, burada söhbət həqiqətən bərpadan gedir. Biz indi yeni istiqamətli yolların açılmasından əvvəl vaxtilə mövcud olmuş kommunukasiya xətlərinin bərpasına nail olmalıyıq. Bu gün bütün dünyanın diqqət mərkəzində olan Zəngəzur dəhlizi də on illər boyu mövcud olmuş, ötən əsrin 90-cı illərində Ermənistan rəhbərliyinin öz qonşularına qarşı başladığı xəyanətkar əməllərə görə bağlanmışdır._**

(ardı 3-cü səhifədə)

# Kommunikasiyaların açılmasını regionun inkişafı tələb edir

(əvvəli 1-ci səhifədə)

Yəni Ermənistan təkcə işğal etdiyi ərazilərimizdəki bütün tikililəri, infrastrukturları darmadağın etməmiş, eləcə də, regionun əsas kommunikasiya xətlərinin sıradan çıxarılması ilə həm özünün, həm də qonşu ölkələrin iqtisadiyyatına otuz il davam edən sarsıdıcı zərbələr vurmuşdur. Yeri gəlmişkən, bu gün Ermənistanın ayıq başla düşünə bilən ziyalıları deyirlər ki, Azərbaycanın dəniz yolu da açıqdır, dəmir yolu da, avtomobil yolları da. Üstəlik, Qarabağda da yeni hava limanları da inşa edilir. Ona görə də, türklərin Zəngəzur dəhlizi adlandırdığı kommunikasiyanın bərpası daha çox Ermənistana sərf edir.

Bu məsələ ilə bağlı danışarkən, iki mühüm məqamı yada salmaq istəyirəm. Birinci məqam böyük ədib Ernest Heminqueylə bağlıdır. O yazmışdı ki, heç bir müharibə bitmir, yeni müstəviyə keçir. Yəni silahların susmasından, orduların döyüş meydanından geri çəkilməsindən sonra tərəflər iqtisadi maraqların təmin olunması və qorunması üçün yeni mübarizəyə başlayırlar. Çox təəssüf ki, bu gün Ermənistanda xalqın mənafeyini, dövlətin maraqlarını düşünmək istəyənlərə nisbətən işğalçılıq, terrorçuluq, separatçılıq, hətta faşizmin dirçəldilməsinə çalışanlar daha çoxdur. Azərbaycan tərəfi isə Prezident İlham Əliyevin dəfələrlə təkrar etdiyi kimi, qarşıdurma səhifəsini bağlayaraq, iqtisadi inkişafa zəmin yarada biləcək yeni səhifənin açılmasına çalışır.

Bu məzmunlu ikinci xatırlatmamız isə türk dünyasının böyük dövlət xadimlərindən olan Rəcəb Tayyib Ərdoğanın ötən il dekabrın 10-da Bakıda keçirilən Zəfər paradının tribunasından səsləndirdiyi “Müharibə qurtardı. Ancaq mübarizə davam edir. Bizi qarşıda çox böyük işlər gözləyir” məntiqinin nə qədər dəqiq olduğunu və uzaqgörənliklə söylənildiyini göstərir. Doğrudan da, mübarizə hələ davam edir və Qafqazdakı sülhü, əmin-amanlığı, inkişafı görmək istəməyən




qüvvələr ermənilərin öz başlarına çarə qılmasına imkan vermirlər. Ancaq inanırıq ki, bədxahlarımız necə düşünsələr də, region ölkələri bu tarixi şansdan istifadə edərək hərtərəfli inkişafa zəmin yaradacaq layihələrin icrasına nail olacaqlar.

Yeri gəlmişkən, regionun Ermənistan istisna olmaqla, bütün ölkələri Zəngəzur dəhlizinin onlara verəcəyi səmərəni yüksək qiymətləndirərək, bu dəhlizin açılmasını dəstəkləyirlər. Yada salaq ki, Ermənistan rəhbərliyi də bu məsələyə etiraz etmir. Ancaq bu ölkənin revanşist müxalifət kəsimi açıq şəkildə Zəngəzur dəhlizinin qarşısına sədd qoymağa çalışırlar. Onlar özlərinin “Sünik” adlandırdıqları vilayətin itirilməsindən və Naxçıvanın daha güclü regiona çevirlməsindən qorxurlar. Ancaq bunu açıq demir, ölkələrinin kommunikasiyaların açılması üçün vəsaitlərinin olmadığına görə yatırımların Azərbaycan, Türkiyə və Rusiya tərəfindən qoyulacağını bildirirlər. Guya belə olarsa, onda həmin dəhlizin Ermənistana heç bir səmərəsinin olmayacağını iddia edirlər.

Mətbuat yazır ki, Rusiyanın “Avrasiya-Volqayanı” Analitik informasiya Mərkəzinin direktoru Marina Lapenko “Caliber” informasiya portalına verdiyi müsahibəsində bu barədə kifayət qədər əhəmiyyətli fikirlər səsləndirib: “Dağlıq Qarabağ ətrafındakı münaqişələr Ermənistanı iqtisadi blokadaya, onilliklər boyu formalaşmış əlaqələrin itirilməsinə gətirib çıxarıb və Cənubi Qafqazın nəqliyyat-logistik sisteminin işgüzar fəallığını otuz il gecikdirib”.

Rusiyalı ekspertin fikrincə, ilk və ən ciddi çağırış Ermənistanın əməkdaşlığa hazır olması məsələsidir: “İkinci problem isə silahlı münaqişədən, eləcə də böyük insan itkilərindən sonra Ermənistan ictimaiyyətinin Türkiyə və Azərbaycanla münasibətlərin normallaşdırılması məsələsindəki düşüncəsidir”.

Rusiyalı analitik ermənilərə xatırladır ki, Zəngəzur dəhlizi realizə olunarkən Azərbaycan Naxçıvana və Türkiyəyə, Rusiya isə Türkiyəyə və Ermənistana, Ermənistan isə Rusiyaya və İrana (Ermənistan –İran sərhədində birbaşa dəmir yolunun tikintisi coğrafi mühitə görə mümkün deyil) yeni nəqliyyat marşrutu əldə edəcək. Zəngəzur dəhlizi perspektivdə beynəlxalq “Şimal-Cənub” dəhlizinə və Yeni İpək Yoluna inteqrasiya edilə bilər və bu da qısa zamanda Naxçıvan Muxtar Respublikasının inkişafına stimul verəcək. Ona görə də layihənin realizəsi marağında artıq regional oyunçular masa arxasında yer almağa başlayıblar”.

Digər mənbə isə yazır ki, Azərbaycanın və Türkiyənin bədxahları Ermənistanın qulağına başqa “bayatılar” oxuyurlar. Guya Zəngəzur dəhlizinin açılmasından sonra regionda Türkiyənin mövqeyi artacaq. Belə ki, Türkiyə layihə üzərindən yeni tarixində ilk dəfə Azərbaycanla tranzit dəhlizi əldə edir və bu da Ankaranın Cənubi və Şimali Qafqazda, Xəzərdə, eləcə də Mərkəzi Asiya regionundakı mövcudluğunu gücləndirir.

Yəni Moskvanın, Ankaranın və Bakının eyni mövqedən çıxış etdiyi kommunikasiyaların bərpası məsələsinə mane olanlar regionun ictimai-siyasi dairələrinin çox olsa, iki-üç faizini təşkil edirlər. Düşünə bilən insanların 90 faizdən çoxu isə bu layihələrin Ermənistan da daxil olmaqla regionun bütün ölkələrinə, hətta, Mərkəzi Asiyadakı tərəfdaşlarımıza da yüksək səmərə vəd etdiyini söyləyirlər. Bu isə o deməkdir ki, Zəngəzur dəhlizinin önündə elə bir ciddi maneə yoxdur. Çünki bu layihənin reallaşdırılmasını region öklkələrinin hərtərəfli inkişafı tələb edir.

Əgər bu tarixi şansın qarşısında əngəl törətmək istəyən tapılarsa, onda həmin qüvvələrə Azərbaycan Prezidentinin məlum mesajı xatırladılacaq. Prezident dəfələrlə təkrar edib ki, bu dəhliz Ermənistan, istəsə də, istəməsə də, açılacaq. Bu dəhlizin açılması təkcə Ermənistandan asılı deyil. Zəngəzur dəhlizinin fəaliyyətə başlamasında həm Türkiyə, Rusiya və İranın, həm də Çinin, eləcə də digər Asiya dövlətlərinin də marağı var. Dəhlizin fəaliyyətə başlaması bütün dünya üçün əhəmiyyətli hadisədir.

*İttifaq MİRZƏBƏYLİ,*
*“Xalq qəzeti”*

Xalq qəzeti.- 2021.-21 noyabr.- S.1;3.